*Azərbaycan Respublikası*
***Təhsil Nazirliyi***
***BAKI DÖVLƏT UNİVERSİTETİ***
***Ə M R***

**R-48 saylı 27.04.2016-cı il tarixli Əmr**

Bakı şəhəri

***Məzmunu: 2015/2016-cı tədris ilinin yay imtahan sessiyasının keçirilməsi haqqında***

2015/2016-cı tədris ilində universitetin bakalavriat və magistratura səviyyələri üzrə yay imtahan sessiyasının mütəşəkkil keçirilməsi məqsədi ilə

***Ə M R  E D İ R Ə M***

1. Tədris qrafiklərinə uyğun olaraq bakalavriat və magistratura səviyyələri üzrə universitetin bütün fakültələrində dərslər 2016-cı il may ayının 30-da kəsilsin, yay imtahan sessiyası 2016-cı il iyunun 6-dan 30-dək keçirilsin.
2. Bütün fakültələrdə imtahanlar bir qayda olaraq yazılı formada aparılsın. Zərurət yarandığı hallarda rektorluğun qərarı əsasında bəzi fənlər üzrə imtahanlar şifahi-dialoq və ya test formasında aparıla bilər.
3. Sessiya dövründə bakalavriat səviyyəsində (əyani şöbə üzrə) imtahanlar saat $10^{00}$–da başlansın. Bakalavriat (qiyabi şöbə) və magistratura (əyani şöbə) səviyyələrində imtahanlar saat $14^{00}$-da başlansın.
4. Yay imtahan sessiyasında fənlər üzrə keçiriləcək imtahanların siyahısı tədris planlarına uyğun olaraq müəyyənləşdirilsin və imtahan cədvəlləri təsdiq olunmuş həmin siyahıya əsasən tərtib edilsin. 2015/2016-cı tədris ilində yay imtahan sessiyası Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli 348 saylı Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”na və digər normativ sənədlərə müvafiq olaraq keçirilsin.
5. Tədris planında nəzərdə tutulmuş fənlər üzrə saatlar jurnalda fənn müəlliminin imzası ilə yekunlaşdırılsın və fakültə dekanı tərəfindən mövcud qaydada sənədləşdirilsin.
6. Sessiyanın nəticələrinə görə ayrı-ayrı fənlər üzrə ən aşağı göstəricilər müvafiq kafedralarda, fakültə elmi və tədris–metodiki şuralarında ciddi müzakirə olunsun və həmin fənləri tədris edən müəllimlərə növbəti tədris ilində dərs yükü ayrılan zaman nəzərə alınsın.

7. Sessiyanın sonunadək imtahanlara gəlməyən tələbələr (magistrantlar) 3 gün müddətində dekanlığa və Tədris Elektron Mərkəzinə onun səbəbi haqqında rəsmi məlumat verməlidirlər. Bu barədə fakültə dekanlıqları tələbələri (magistrantları) qabaqcadan məlumatlandırsınlar.

8. 2015/2016-cı tədris ilinin yaz semestri ərzində imtahanlara buraxılacaq tələbələrin siyahısı dəqiqləşdirilsin, tədris olunan ayrı-ayrı fənlər üzrə auditoriya saatlarının 25%-dən çoxunda iştirak etməyən tələbələr həmin fəndən imtahana buraxılmasınlar və bu barədə rektorluğa müvafiq məlumat verilsin.

9. Tələbələr (magistrantlar) imtahanlara yalnız tələbə bileti ilə buraxılsınlar.

10. Bir qayda olaraq kənar şəxslərin imtahanda iştirakı qadağandır. Lakin imtahanlarda şəffaflığı təmin etmək məqsədi ilə valideynlərin müraciəti əsasında imtahanların gedişində iştirak etmələrinə müvafiq şərait yaradılsın.

11. Tədris planlarına uyğun sessiyanı müvəffəqiyyətlə vermiş tələbələrə (magistrantlara) mövcud qaydada təqaüd verilməsi haqqında təqdimatlar iyul ayının 15-dən gec olmayaraq mühasibatlığa və tədris şöbəsinə təqdim olunsun.

## *12. FAKÜLTƏ DEKANLARINA VƏ KAFEDRA MÜDİRLƏRİNƏ TAPŞIRILSIN:*

a) bütün tədris qruplarında fərdi qaydada görüş keçirsinlər və tələbələrin istək və arzularına diqqətlə yanaşsınlar.

b)semestr ərzində seminar və laboratoriya dərslərində, kollokviumlarda tələbələrin bilik səviyyəsinin fənn müəllimləri tərəfindən düzgün qiymətləndirilməsinə ciddi nəzarət etməklə obyektivliyi təmin etsinlər və bu barədə rektorluğa müvafiq təkliflər versinlər .

c) İmtahan cədvəllərinin tərtibi zamanı auditoriya fondundan səmərəli istifadə etmək məqsədi ilə sessiya müddətində günlər üzrə imtahanların (hər gün imtahan keçirməklə) bərabər bölgüsünü təmin etsinlər.

d)imtahan cədvəlləri üzrə kafedralarda müvafiq qeydiyyat aparmaqla imtahanqabağı məsləhət saatlarının keçirilməsini, sessiya zamanı imtahanlarda tədris proqramlarının və digər zəruri tədris-metodiki vəsaitlərin olmasını təmin etsinlər.

e) imtahan zamanı ayrı-ayrı fənlər üzrə 17-dən az bal toplamış (və ya yekunda qeyri-kafi qiymət almış) tələbələrin sayı qrupda 50%-dən çox olarsa, həmin tələbələr və müəllimlər haqqında qərargaha məlumat verilsin.

f) imtahanın gedişində tələbələrin telefon və digər texniki vasitələrdən istifadəsi qəti qadağandır. İmtahan zamanı konspektdən, kitabdan və digər vasitələrdən istifadə hallarına yol verən tələbələrə qarşı imtahan zamanı köçürtmə hallarının aradan qaldırılması barədə verilmiş R-102 saylı 14.10.2011-ci il tarixli əmrə əsasən müvafiq tədbirlər görülərək köçürtmə haqqında akt tərtib edilsin və həmin auditoriyaya təhkim olunmuş koordinatorlar və fakültə dekanı tərəfindən imzalansın. İmtahan zamanı yardımçı vəsaitlərdən (proqram, xəritə və s.)yalnız müəllim-koordinatorların iştirakı ilə istifadə oluna bilər.

g)ödənişli təhsil alan tələbələrin (magistrantların) təhsil haqqını vaxtında ödəmələrinə ciddi nəzarət etsinlər. Bu zaman :

- cari tədris ilinin haqqını yay imtahan sessiyası başlayanadək ödəməyən tələbələr imtahanlara buraxılmasınlar;
- əvvəlki və cari tədris illərindən qalan təhsil haqqı borcunu (əlavə qruplar, yay semestri və digər təhsil formaları üzrə kredit ödəmələri daxil olmaqla) 2016-cı ilin iyun ayının 1-dək ödəməyən tələbələr imtahanlara buraxılmasınlar;
- bu qəbildən olan bütün tələbələr imza edilməklə əvvəlcədən məlumatlandırılsınlar.

h)imtahanlarda 3 gün və daha artıq iştirak etmədikdə 49 saylı 20.10.2015-ci il tarixli sərəncamla təyin olunmuş müəllim-koordinatorlardan izahat alınsın və müvafiq inzibati tədbir görülsün.

x)imtahan keçirilən günlərdə saat $9^{30}$-da və $13^{30}$-da əsas binanın böyük akt zalında müəllim-koordinatorların iştirakını təmin etsinlər. Müəllim- koordinatorlar öz imtahan cədvəlləri haqqında əvvəlcədən yazılı məlumat versinlər.

13. İmtahanlarda tələbələrin biliyinin qiymətləndirilməsində qeyri-obyektivliyə yol verilməsinin qarşısını almaq üçün profilaktik tədbirlər görülsün. Hər bir neqativ hal üçün fakültə dekanlarının və kafedra müdirlərinin birbaşa məsuliyyət daşıdıqları onların nəzərinə çatdırılsın. Belə hallar baş verdikdə mövcud qanunvericiliyə uyğun ciddi tədbirlər görsünlər və bu barədə rektorluğa müvafiq təkliflər versinlər. İmtahanların gedişi ardıcıl surətdə yoxlanılsın, onların nəticələri kafedra iclaslarında və fakültə elmi şuralarında müzakirə edilsin.

14. Yay imtahan sessiyasının nəticələri qeyd olunan imtahan vərəqləri müəllimlər tərəfindən imzalandıqdan sonra 2016-cı il iyul ayının 05-dək təsdiq olunmaq üçün Tədris Elektron Mərkəzinə təqdim edilsin.

15. Yay imtahan sessiyası müddətində ayrı-ayrı fənlər üzrə imtahanlarda üzürlü səbəbdən iştirak etməyən tələbələrə (magistrantlara) mövcud əsasnaməyə müvafiq olaraq 2016-ci il iyul ayının 1-5-dək həmin fənlər üzrə imtahanlarda iştirak etməyə icazə verilsin.

16. Tədris Elektron Mərkəzinin müdiri prof.M.M.Qurbanovaya, Tədris şöbəsinin müdiri dos.İ.H.İbadova və Magistratura və Doktorantura şöbəsinin müdiri prof. A.O. Məmmədovaya tapşırılsın:

a) imtahanların mütəşəkkil keçirilməsi, onların gedişinə nəzarətin artırılması məqsədilə fakültələrdə eyni fənlər üzrə qrupların birləşdirilməsini və imtahan cədvəllərinin səmərəli tərtibinin koordinasiyasını təmin etsinlər. Bu məqsədlə imtahan cədvəllərinin tərtibi zamanı alt qruplarda kredit götürən, yaz semestrində əlavə yaradılmış qruplarda və məsləhət saatlarında iştirak edən, eləcə də passiv tələbələr üçün fənlər üzrə imtahanların koordinasiyası, auditoriya fondu və koordinatorların sayı nəzərə alınsın.

b)imtahan prosesinə nəzarətin video-kameralar vasitəsilə aparılmasına, köçürtmə hallarına yol vermiş və ya nizam-intizam qaydalarını pozmuş tələbələrin video-görüntülərinin saxlanılmasını, lazım gəldikdə tələbələrin və valideynlərin nəzərinə çatdırılmasını təmin etsinlər.

c)imtahan sessiyasının mövcud əsasnaməyə uyğun keçirilməsinə, sessiyanın gedişini və nəticələrini əks etdirən bütün statistik forma və hesabatların vaxtında tərtib edilməsinə ciddi nəzarət etsinlər və sessiya bitdikdən sonra 10 gün müddətində TN yekun hesabatı versinlər;

d) imtahanların keçirilməsini lazımi blanklarla təchiz etsinlər.

17. Sessiyanın gedişinə operativ nəzarət etmək məqsədi ilə əvvəlki sessiyalar zamanı rektorun ümumi məsələlər üzrə müşaviri prof. İ.Ə.Əliyevin sədrliyi ilə yaradılmış qərargah və apellyasiya komissiyası yay imtahan sessiyası zamanı da fəaliyyətini davam etdirsin. Prof.İ.Ə.Əliyevə tapşırılsın ki, sessiya müddətində imtahanların gedişi ilə əlaqədar ərizə, təklif və Təhsil Nazirliyinin «Qaynar xətti» ilə daxil olmuş şikayətlərin araşdırılmasını təmin etsin və bu barədə tədbir görülməsi məqsədilə müvafiq təkliflər versin.

18. İmtahanların nəticəsi ilə əlaqədar müraciət etmiş tələbələrin (magistrantların) ərizələrinə Apelyasiya komissiyalarında 2016-cı il iyul ayının 1-dək baxılsın və bu barədə rektorun həmin tələbələrlə görüşü keçirilsin.

19. Yay imtahan sessiyasının gedişinə operativ nəzarət etmək məqsədi ilə rektorluğun aşağıda adları qeyd olunan nümayəndələri müvafiq fakültələrə təhkim edilsinlər:

***I. Hüquq, beynəlxalq münasibətlər və iqtisadiyyat, filologiya, kimya, biologiya, ekologiya və torpaqşünaslıq fakültələri üzrə:***

| | |
|---|---|
| prof.Əliyeva İradə Nurəddin qızı | Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor |

***II. Mexanika- riyaziyyat, tətbiqi riyaziyyat və kibernetika, tarix, fizika coğrafiya və geologiya fakültələri üzrə:***

| | |
|---|---|
| AMEA-nın müxbir üzvü,<br>prof. Kazımzadə Aydın Həsən oğlu | Elm və innovasiyalar üzrə prorektor |

***III. Sosial elmlər və psixologiya, şərqşünaslıq, jurnalistika, kitabxanaçılıq-informasiya və ilahiyyat fakültələri üzrə:***

| | |
|---|---|
| prof.Hacıyev Sani Tofiq oğlu | Sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektor |

***20. ELMİ KİTABXANANIN DİREKTORUNA TAPŞIRILSIN:***

Sessiya müddətində Elmi kitabxananın saat $8^{30}$-dan $19^{00}$-dək fəaliyyət göstərməsini təmin etsin və fakültə dekanları ilə birlikdə tələbələrin dərsliklər və dərs vəsaitləri ilə təmin olunmasına lazımı şərait yaratsın.

***21. SOSİAL MƏSƏLƏLƏR, TƏLƏBƏLƏRLƏ İŞ VƏ İCTİMAİYYƏTLƏ ƏLAQƏDAR VƏ İQTİSADİ VƏ TƏSƏRRÜFAT İŞLƏRİ ÜZRƏ PROREKTORLARA TAPŞIRILSIN:***

a) universitetdaxili nizam-intizam qaydalarının yerinə yetirilməsi və fakültələr üzrə növbətçilik təmin edilsin.

b)imtahan üçün ayrılmış auditoriyaların təmirini və texniki təchizatını təmin etsinlər.

c) tələbə vəsiqəsi və ya şəxsiyyət vəsiqəsi olmayan şəxslərin universitetin giriş qapılarından buraxılmamalına ciddi nəzarət təşkil edilsin.

***22. «MƏTBUAT VƏ İNFORMASİYA» ŞÖBƏSİNİN MÜDİRİ VƏ «BAKI UNİVERSİTETİ» QƏZETİNİN REDAKTORUNA TAPŞIRILSIN:***

Sessiyaya hazırlıq və onun gedişi müntəzəm surətdə universitetin veb saytında və qəzetin səhifələrində işıqlandırılsın.

***23. UNİVERSİTET VƏ FAKÜLTƏ TƏLƏBƏ HƏMKARLAR TƏŞKİLATLARININ VƏ TƏLƏBƏ CƏNGLƏR TƏŞKİLATININ SƏDRLƏRİNƏ TAPŞIRILSIN:***

Sessiya müddətində imtahanların gedişində yaxından iştirak etsinlər və müntəzəm olaraq rektorluğa və fakültə dekanlıqlarına müvafiq məlumat versinlər.

24. Kadrlar şöbəsinin müdiri əvəzi T.F.Əhədovaya tapşırılsın ki, kafedra müdirlərinin, müəllimlərin, elmi işçilərin və köməkçi heyətin işə davamiyyətinə nəzarəti bir daha gücləndirsin.

25. Bu əmr fakültə elmi şuralarında, dekanlıqların və kafedraların iclaslarında professor-müəllim heyətinin (imza edilməklə) nəzərinə çatdırılsın və fakültənin elanlar lövhəsindən asılsın.

26. Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.

***ƏSAS:*** Tədris qrafiki və mövcud Əsasnamə, əmrlər və sərəncamlar.

***R E K T O R*** ***akademik A.M.MƏHƏRRƏMOV***

**Layihəni hazırladı:**
Tədris şöbəsinin müdiri

___________________dos.İ.H.İbadov

Magistratura və Doktorantura şöbəsinin müdiri

_________________prof.A.O.Məmmədova

**Razılaşdırılıb:**
Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor

___________________prof.İ.N.Əliyeva

Elm və innovasiyalar üzrə prorektor

_________________ prof.A.H.Kazımzadə

Sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektor

___________________ prof.S.T.Hacıyev

Tədris Elektron Mərkəzinin müdiri

__________________prof.M.M.Qurbanova
Baş mühasib

_______________F.H.Babayeva
Baş hüquqşünas

___________________T.M.Sadıxov